HAL open science

# Beynəlxalq humanitar hüquq və silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi

Səxavət Yusifov

**To cite this version:**

Səxavət Yusifov. Beynəlxalq humanitar hüquq və silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi. 2022. ⟨hal-04270257⟩

**HAL Id: hal-04270257**

**https://hal.science/hal-04270257v1**

Submitted on 14 Nov 2023

**HAL** is a multi-disciplinary open access archive for the deposit and dissemination of scientific research documents, whether they are published or not. The documents may come from teaching and research institutions in France or abroad, or from public or private research centers.

L'archive ouverte pluridisciplinaire **HAL**, est destinée au dépôt et à la diffusion de documents scientifiques de niveau recherche, publiés ou non, émanant des établissements d'enseignement et de recherche français ou étrangers, des laboratoires publics ou privés.

PUBLIC DOMAIN

Distributed under a Creative Commons CC0 1.0 - Universal - International License

# Beynəlxalq humanitar hüquq və silahlı münaqişə zamanı ətraf mühitin mühafizəsi

*Səxavət Yusifov**

*"Təbiətə qarşı müharibədəyik, qalib gəlsək məğlub olacağıq."*

*Hubert Reeves*

## Giriş

Bəşər tarixi çox saylı müharibələri, döyüşləri və silahlı münqaişələri özündə əks etdirir. Bu müharibələrin ciddi insan itkisinə səbəb olması hamıya məlumdur. Bundan əlavə, istənilən silahlı münaqişə zamanı ətraf mühitin bu və digər şəkildə zərər görməsi faktı da aydındır. Bu zərər həm beynəlxalq humanitar hüquqa uyğun, həm də ona zidd həyata keçirilən hərbi əməliyyat və hərəkətlərin nəticəsi ola bilər.

İstər tarix baxdıqda, istərsə də müasir dövrdə baş verən hadisələrə baxdıqda müharibələrin ətraf mühitə ciddi ziyan vurmaq potensialına malik görürük. Son illərdə ekoloji çirklənmə, iqlim dəyişiklikləri və digər əlaqəli problemlər ətraf mühitin mühafizəsi məsələsini xüsusilə aktuallaşdırmışdır. Buna baxmayaraq, silahlı münaqişələr zamanı ətraf mühitin qorunmasına yönəlmiş hüquqi tənzimləmələr müəyyən qədər yenidir.[1] Məhz bu səbəbdən bu tənzimləmələrdə müxtəlif hüquqi boşluqlar və ziddiyyətli məqamlar mövcuddur.

Bu yazının məqsədi silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsinə dair mövcud hüquqi tənzimləmələrdəki çatışmayan cəhətləri müəyyən etmək və müəyyən həll yolları axtarmaqdır. Yazı çərçivəsində ilkin olaraq ətraf mühitin qorunmasının beynəlxalq ümumi hüquqdakı yeri və silahlı münaqişələrlə ətraf mühit arasındakı əlaqə araşdırılacaq, daha sonra isə müvafiq sahədəki tənzimləmələr nəzərdən keçirilərək hüquqi boşluqların müəyyən edilməsinə çalışılacaq.

Silahlı münaqişələr zamanı ətraf mühitin mühafizəsinə dair hüquqi tənzimləmələr yeni olduğu üçün bu sahədəki hüquqi problemlərə həsr edilmiş akademik tədqiqatlar da nisbətən yenidir. Bu məqam yazının əhəmiyyətini artırır.

## I. Beynəlxalq hüquqda ətraf mühitin mühafizəsi

---

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, hüquqşünaslıq ixtisası üzrə bakalavr

[1] Gökhan GÜNEYSU,"Çevrenin Silahlı Çatışmalar Esnasında Korunması", Adalet Yayınları, 2014, s 14.

### A. Ətraf mühitin mühafizəsinə dair beynəlxalq hüququn əsas prinsipləri

Silahlı münaqişələr zamanı ətraf mühitə dəymiş zərərin qanuni və ya qeyri-qanuniliyini tənzimləyən beynəlxalq hüquq normaları iki əsas prinsipə əsaslanır. Birinci prinsip dövlətlərin öz ərazi yurisdiksiyasından kənarda ətraf mühitə zərər vurmamaq vəzifəsi, ikincisi isə dövlətlərin ətraf mühitə hörmət etmək öhdəlikləri ilə bağlı ümumi prinsipdir.[2]

Ətraf mühiti qorumaq üçün müəyyən edilən bu qadağa çoxsaylı məhkəmə və arbitraj qərarlarında, habelə bir sıra beynəlxalq və regional konvensiya və yerli qanunvericilik aktlarında[3] nəzərdə tutulub. Bu prinsip artıq beynəlxalq hüquqda adət normasına çevrilib. Həmçinin nəzərə almaq lazımdır ki, silahlı münaqişənin mövcudluğu münaqişə tərəflərini bu öhdəlikdən azad etmir.[4]

İkinci prinsip əvvəlki ilə müqayisədə daha geniş tətbiq dairəsinə malikdir. Belə ki, bu prinsip dövlətin özünün və ya başqa bir dövlətin tabe olduğu hüquqi rejimdən asılı olmayaraq, ətraf mühitə hörmət etmək öhdəliyini müəyyən edir. Bu öhdəlik bəşəriyyətin ümumi irsini təşkil edən obyektlərə şamil edilir. Bir sıra beynəlxalq konvensiya və qeyri-konvensinal hüquqi aktlarda bu öhdəliyə rast gəlmək mümkündür. Məsələn, BMT-nin 28 oktyabr 1982-ci il tarixli Ümumdünya Təbiət Xartiyasının 5-ci prinsipində gösətərilir ki, "Təbiət müharibə və ya digər hərbi əməliyyatlar nəticəsində yaranan dağıntılardan qorunmalıdır". 20-ci prinsipində isə təbiətə ziyan vuran hərbi fəaliyyətdən çəkinməyin vacibliyi vurğulanır.[5]

### B. Beynəlxalq insan hüquqları hüququnda ətraf mühitin mühafizəsi

Ətraf mühitin mühafizəsi məsələsi beynəlxalq insan hüquqları hüququnun *(international human rights law)* da tənzimləmə sahəsinə aiddir. İlk dəfə 1972-ci il Stokholm bəyannaməsi ilə azadlıq, bərabərlik və yaşamaq kimi təməl insan hüquqları layiqli və rifah içində yaşamağa imkan verən ətraf mühitlə əlaqələndirilib, fərdlər üçün ətraf mühiti qorumaq və yaxşılaşdırmaq vəzifəsi müəyyən edilib.[6] Üçüncü nəsil insan hüquqlarından

---

[2]Antoine, P. (1992). Droit international humanitaire et protection de l'environnement en cas de conflit armé. International Review of the Red Cross, 74(798), p 538. https://international-review.icrc.org/sites/default/files/S0035336100171886a.pdf

[3] Bax : Tribunal administratif de Strasbourg, La Province de la Hollande septentrionale c./Etat ministre de l'environnement, 27 juillet 1983, Revue juridique de Venvironnement (RJE), 1983, p. 343.

[4] Bothe, Michael; Cassese, Antonio; Kalshoven, Frits; Kiss, Alexandre; Salmon, Jean, et Simmonds, Kenneth R., La protection de lenvironnement en temps de conflit arme, Communautes europeennes, Commission, doc. interne SJ/110/85, 119 pp

[5] The World Charter for Nature, 28 October 1982 https://www.un.org/documents/ga/res/37/a37r007.htm

[6] Convention de Stockholm sur l'environnement (16 juin 1972), Revue generate de droit international public (RGDIP), 1973, pp. 350 et s https://www.ldh-france.org/1972-DECLARATION-DE-STOCKHOLM-SUR/

hesab edilən sağlam ətraf mühitdə yaşamaq hüququ hazırda əsas və qorunması xüsusi əhəmiyyət daşıyan hüquqlardan birinə çevrilib.[7]

Bildiyimiz kimi, BMT-nin İnsan Hüquqları Komitəsi Mülki və Siyasi Hüquqlar haqqında Paktının müdafiə mexanizmi hesab olunur və Paktın implementasiyası üzərində beynəlxalq nəzarəti həyata keçirir. Komitə ətraf mühitin mühafizəsi ilə bağlı baxdığı işlərdə ətraf mühitin qorunmasını yaşamaq hüququ və işgəncəyə məruz qalmamaq[8] hüququ ilə əlaqələndirib.[9]

Avropa İnsan Hüquqları Məhkəməsi isə ətraf mühitlə bağlı problemlərdə İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasının 8 (şəxsi və ailə həyatına hörmət hüququ) və 10-cu (ifadə azadlığı) maddələrinə, habelə 1 saylı əlavə Protokolun 1-ci maddəsinə (mülkiyyətin müdafiəsi) istinad edir.[10]

### C. Beynəlxalq təhlükəsizlik hüququnda ətraf mühitin mühafizəsi

Beynəlxalq təhlükəsizlik hüququ hərbi, siyasi, iqtisadi, ekoloji və digər sahələrdə təhlükəsizliyin təmini və beynəlxalq sülhün qorunmasına yönəlmiş beynəlxalq-hüquqi prinsip və normaların məcmusudur.[11] Tərksilah və silahlanmanın məhdudlaşdırılması məsələləri də bu xüsusi hüquq sahəsinin tənzimləmə dairəsinə aiddir.[12] Ətraf mühitiə dair bu sahədəki əsas tənzimləyici akt Ətraf mühitə təsir vasitələrindən hərbi və ya başqa bir düşmən istifadəsinin qadağan edilməsi haqqında BMT-nin 10 dekabr 1976-cı il tarixli Konvensiyasıdır (ENMOD). [13] Ətraf mühitlə bağlı əsas tənzimləmə Konvensiyanın 1-ci maddəsi ilk bəndində nəzərdə tutulub. Həmin bəndə əsasən razılığa gələn dövlətlərdən hər hansı birinə qarşı ətraf mühitə geniş, uzunmüddətli və ya ciddi ziyan vuran üsul və metodlardan istifadə qadağandır. İkinci bənddə isə üzv dövlətlərə başqa beynəlxalq hüquq subyektlərinə bu fəaliyyətlərin göstərilməsində kömək və ya təşviq edilməsi qadağan edilir.[14]

---

[7] Yuxarıda 2, s 540.

[8] İşgəncələrə və ya ağır, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq

[9] Alexandre KISS, "Environnement, droit international, droits fondamentaux" https://www.conseil-constitutionnel.fr/nouveaux-cahiers-du-conseil-constitutionnel/environnement-droit-international-droits-fondamentaux#:~:text=%C2%AB%20L'homme%20a%20un%20droit,les%20g%C3%A9n%C3%A9rations%20pr%C3%A9sentes%20et%20futures.%20%C2%BB

[10] yuxarıda 9

[11] R. Məmmədov, "Beynəlxalq hüquq", Bakı, 2002, s 187.

[12] Fransız hüquq doktrinasında tərkisilah hüququ (droit du desarmetnent) beynəlxalq hüququn müstəqil sahəsi hesab olun və bu məsələlər həmin sahənin tənzimləmə obyekti hesab edilir.

[13] Convention on the Prohibition of Military or Any Other Hostile Use of Environmental Modification Techniques (ENMOD)
İngilis və Alman akademik tədqiqatlarında bu Konvesiya qısaca ENMOD adlandırılır. Bu abreviatura Environmental və Modification sözlərinin birləşməsindən yaranıb.

[14] Yuxarıda 13, 1-ci maddə.

Bəzi tədqiqatlarda ENMOD beynəlxalq humanitar hüququn tənzimləmə vasitəsi kimi nəzərdən keçirilmişdir.[15] Lakin biz bu yanaşmanı doğru hesab etmirik. Belə ki, beynəlxalq humanitar hüquq silahlı münaqişələr zamanı tətbiq olunan və döyüşlərin aparılmasının üsul və metodlarını müəyyən edən beynəlxalq hüquq sahəsidir.[16] ENMOD-un tətbiqi isə təkcə silahlı münaqişlərlə kifayətlənmir, eyni zamanda sülh dövründə də tətbiq edilir.[17] Buna görə də bu Konvensiyanın beynəlxalq təhlükəsizlik, daha dəqiq tərkisilah hüququ çərçivəsində təhlil etməyi məqsədə müvafiq hesab etdik. Lakin bu yanaşma ENMOD-un silahlı münaqişələrə tətbiq edilməyəcəyi kimi anlaşılmamalıdır.

Göründüyü kimi ətraf mühitin mühafizəsi beynəlxalq ümumi hüququn müxtəlif sahələrində ortaya çıxır. Lakin ətraf mühitin qorunmasının vacibliyi daha çox beynəlxalq humanitar hüquqla bağlıdır. Bu bağlılıq hər şeydən əvvəl onunla əlaqəlidir ki, silahlı münaqişələrin ətraf mühitə vurduğu ziyanın miqyası digər fəaliyyətlərlə müqayisədə daha çoxdur. Ətraf mühitin mühafizəsinin beynəlxalq humanitar hüquqdakı yerini müəyyən etmək üçün aşağıdakı başlıqda silahlı münaqişələr və ətraf mühit arasındakı əlaqə araşdırılacaqdır.

## II. Silahlı münaqişələr və ətraf mühitin əlaqəsi

Ətraf mühitə əhəmiyyətli ziyan vuran və mövcud ekoloji problemləri artıran silahlı münaqişələr təbii yaşayış yerlərini ekoloji fəlakət ərazilərinə çevirə bilir.

Silahlı münaqişə nəticəsində ətraf mühitə vurulan zərər əsasən yaşayış yerlərinin dağıdılması, təbii ehtiyatların həddindən artıq istehlakı və ekolji çirklənmə formasında baş verir. Silahlı münaqişələr bütün canlılar üçün həyati əhəmiyyət kəsb edən torpaq, hava, su kimi elementlərin, habelə meşə və dənizlərin çirklənməsinə və bioloji müxtəliflik və təbii sərvətlər məhvinə səbəb olur.[18]

Silahlı münaqişələrin təbiətə vurduğu bu zərər münaqişədən əvvəl, münaqişə zamanı və münaqişədən sonra şəklində üç mərhələdə nəzərdən keçirilə bilər. Münaqişədən əvvəlki dövrdə təbii mühitin çirklənməsində xüsusilə hərbi sənayenin mühüm amil olduğu görünür. Bu kontekstdə silahların, xüsusən də kimyəvi, bioloji və nüvə silahlarının istehsalı, sınaqdan keçirilməsi və saxlanması zamanı baş verən radioaktiv və zəhərli çirklənmə təbii mühit üçün ciddi təhlükə yaradır.[19] Lakin ətraf mühitə əsas ziyan

---

[15] Bax: yuxarıda 1
[16] Lətif Hüseynov, "Beynəlxalq hüquq", Bakı: Hüquq ədəbiyyatı, 2000, s187.
[17] Yuxarıda 2, 546
[18] Hakan ALTINTAŞ, "Savaşların Çevresel Boyutu ve Ekosistem Üzerindeki Geri Dönüşü Olmayan Etkileri", Manas Üniversitesi Sosyal Bilimler Dergisi, Say› 8, 2003, s. 143. https://www.yumpu.com/tr/document/view/15838372/savaslarn-cevresel-boyutu-ve-ekosistem-uzerindeki-geri-donusu
[19] Philippe SANDS, Principles of International Environmental Law, Second Edition, Cambridge University Press, 2003, s. 308 https://assets.cambridge.org/97811084/20952/frontmatter/9781108420952_frontmatter.pdf

münaqişə zamanı və ondan sonra baş verir. Münaqişələrin uzun illər ərzində yayılan təsirləri illər keçdikcə özünü daha çox göstərə və gələcəkdə daha ciddi fəsadların yaşanmasına səbəb ola bilər. [20]

Göründüyü kimi, silahlı münaqişələrin ətraf mühitə ciddi təsirləri var. Bu mənfi təsirləri azaltmaq və qarşısını almaq məqsədilə beynəlxalq humanitar hüquq çərçivəsində müxtəlif hüquqi tənzimləmələr həyata keçirilib. Aşağıdakı başlıqda bu tənzimləmələri araşdıracayıq.

## III. Beynəlxalq humanitar hüquqdakı ətraf mühitin mühafizəsinə dair hüquqi tənzimləmələr

Ədəbiyyatlarda beynəlxalq humanitar hüququn ətraf mühitlə bağlı tənzimləmərini iki qrupa ayırırlar. Birinci qrup birbaşa, yəni xüsusi olaraq ətraf mühitin mühafizəsi ilə bağlı müddəalardan irəli gələn tənzimləmə hesab olunur. İkinci qrup isə dolayı yolla, yəni birbaşa ətraf mühitlə bağlı olmayan, lakin ətraf mühitin qorunmasına müsbət təsir göstərən tənzimləmə vasitələri hesab edilir.

### A. Birbaşa tənzimləmə

1949-cu ildə qəbul edilən Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyası silahlı münaqişələrə dair hüquq normalarının kodifikasiyası məqsədi güdürdü. Bu Konvensiya beynəlxalq humanitar hüququn əsas mənbələrindən biri hesab edilsə də, ətraf mühitin qorunmasına dair hər hansı norma nəzərdə tutmamışdı. Lakin 1977-ci ildə qəbul edilən Cenevrə Konvensiyasının I saylı əlavə Protokolu ilə ətraf mühitin mühafizəsinə dair müddəalar müəyyən edilib. Bu tənzimləmə Protokolda təsbit edilmiş iki maddə ilə həyata keçirilir. Həmin maddələrdən biri olan 35-ci maddə aşağıdakı şəkildə təsbit edilmişdir:

*“Maddə 35 - Əsas qaydalar*

*1. Hər hansı bir silahlı münaqişədə münaqişə tərəflərinin müharibə üsullarını və ya vasitələrini seçmək hüququ qeyri-məhdud deyil.*

*2. Həddindən artıq xəsarət və ya lüzumsuz əzab-əziyyətə səbəb olan silah, mərmi, döyüş vasitələri və üsullarının istifadəsi qadağandır.*

---

[20] Özkerim Güner, “Silahlı çatışmalarda kültürel varlıkların korunması”, Yeditepe Üniversitesi Hukuk Fakültesi Dergisi, 19 (1), s 257. https://dergipark.org.tr/tr/pub/yuhfd/issue/69402/1080146

*3. Ətraf mühitə geniş, uzunmüddətli və ciddi ziyan vurmaq üçün nəzərdə tutulan və ya ziyan vurması ehtimal olunan döyüş üsul və ya vasitələrindən istifadə etmək qadağandır.”*[21]

Göründüyü kimi, maddənin ilk iki bəndində münaqişə tərəflərinin silahlı münaqişələrdə istifadə olunacaq silahları seçməkdə qeyri-məhdud hüquqa malik olmadığı qeyd edilib. Sonuncu bənd isə ətraf mühitin mühafizəsi məqsədilə müəyyən qrup döyüş üsul və vasitələrini qadağan edib. Ətraf mühitin mühafizəsinə dair bu yanaşma Protokolun ətraf mühitin mühafizəsi adlı 55-ci maddəsində də müəyyən qədər təkrarlanmışdır. Həmin maddənin birinci bəndinə əsasən “*Müharibə zamanı ətraf mühitin geniş, uzunmüddətli və ciddi ziyandan qorunmasına diqqət yetirilməlidir. Bu mühafizə ətraf mühitə bu cür ziyan vurmaq və bununla da əhalinin həyatına və ya sağlamlığına zərər vurmaq məqsədi daşıyan və ya gözlənilən müharibə üsullarının və ya vasitələrinin istifadəsinin qadağan edilməsini əhatə edir.*” Maddənin ikinci bəndi isə ətraf mühitə qarşı repressiv (way of reprisals) hücumları qadağan edir.[22]

İlk baxışdan hər iki maddənin müəyyənləşdirdiyi tənzimləmənin oxşarlıq təşkil etdiyi görünür. Lakin 55-ci maddəni ətraflı təhlil etdikdə görürük ki, bu maddə 35-ci maddənin müəyyən etdiyi mühafizənin əhatə dairəsini darlaşdırılıb. Belə ki, 55-ci maddədə ətraf mühitin mühafizəsi əhalinin həyat və sağlamlığı ilə şərtləndirilib. Nəticədə bu maddə ilə əhalinin həyat və sağlamlığı üçün təhlükəli olmayan, amma ətraf mühitə ciddi ziyan vuran üsul və vasitələr qadağadan kənar tutulub. Maddənin əhatə dairəsinin bu formada darlaşdırmasını məqsədə müvafiq hesab etmirik. Həmin maddədə güdülən əsas məqsəd insanların həyat və sağlamlığının qorunması ilə yanaşı, ətraf mühitin mühafizəsi də olmadır deyə düşünürük.

Hər iki maddənin mətnində geniş, uzunmüddətli və ciddi zərər ifadəsindən istifadə edilir. Lakin Protokolda bu anlayışlara hər hansı definisiya verilməyib. Bu ifadələrin izahına Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Protokolun müddəaları ilə bağlı hazırladığı şərh mətnində rast gəlinir.[23] Bu şərhə əsasən geniş zərər dedikdə bir neçə yüz kvadrat kilometrdən az əraziləri əhatə edən, uzun müddətli və ciddi zərər dedikdə isə müvafiq olaraq on il və ya daha çox müddət ərzində mülki əhalinin həyatı üçün əhəmiyyətli risklər yaradan və ya ciddi sağlamlıq problemlərinə səbəb olan zərər başa düşülməlidir.

Uzun müddətli zərər ifadəsinə verilən anlayış onu göstərir ki, Protokol ətraf mühit üçün silahlı münaqişə ərzində kifayət qədər effektiv müdafiə təşkil etmir. Yalnız vurulan ziyanın

---

[21] Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyasının I saylı əlavə Protokolu, 8 iyun 1977, m 35.

[22] Yuxarıda 21, m 55.

[23] Sandoz, C. Swinarski, B. Zimmermann, Commentary on the Additional Protocols of 8 June, 1977, to the Geneva Conventions of 12 August, 1949, at 416–417, 1987’den nakleden Roman REYHANI, “Protection of the Environment Dur›ng Armed Conflict”, Missouri Environmental Law and Policy Review, Say› 14, 2007, s. 331.

zərərləri 10 və ya daha çox müddət ərzində təhlükə yaradacağı halda Protokolun müddəaları tətbiq edilir.[24] Bu yanaşmanı ətraf mühitin qorunmasına dair beynəlxalq humanitar hüququn əsas problemlərindən biri hesab edirik.

Digər əsas problem isə Protokolun ENMOD ilə müqayisəsində ortaya çıxır. ENMOD-dan fərqli olaraq Protokolun müddəalarının tətbiqi üçün zərərin eyni anda geniş, uzunmüddətli və ciddi olması tələb olunur. Bu isə ətraf mühitə vurulmuş bəzi ciddi zərərlərin Protokola zidd hesab edilməməsinə gətirib çıxarır. Fikrimizcə, hər üç şərtin eyni anda baş verməsi tələbi ətraf mühitə dəymiş zərərin qiymətləndirilməsi üçün olduqca yüksəkdir və bu şərtlərdən birinin və ya ən azı ikisinin ödənməsi kifayət etməlidir. Hər üç şərtin ödənməsi tələbi və Protokolun yalnız silahlı münaqişə dövründə tətbiq edilməsi onu ENMOD ilə müqayisədə daha zəif mühafizə rejimi müəyyən etdiyini deməyə imkan verir. Bununla belə ENMOD-dan fərqli olaraq Protokol istifadə olunan silahın növündən asılı olmayaraq ətraf mühitin qorunmasına çalışır. Halbuki ENMOD ətraf mühitin modifikasiya üsullarından silah kimi istifadənin qarşısını almaq məqsədi daşıyır.[25] Bu məqamda Protokolun tənzimlənməsi ENMOD-dan daha üstün hesab oluna bilər.

Protokolda təsbit olumuş bəzi müddəalarının beynəlxalq adət normasına çevrildiyini bilirik.[26] Lakin Protokolun ətraf mühitlə bağlı müddəalarının beynəlxalq adət norması hesab olunub-olunmamasına dair doktrinada vahid fikir yoxdur. Müəlliflərdən Cassese-in fikrincə, 55-ci maddə ümumi konsensusu əks etdirir və bütün dövlətlər üçün məcburi xarakter daşıyır.[27] Bununla belə Dinstein ve Okowa kimi müəlliflər 35(3) və 55(1)-ci maddələrin sadəcə üzv dövlətlər üçün məcburi xarakter daşıdığı fikrini irəli sürüblər. Beynəlxalq Ədalət Məhkəməsi də 8 iyul 1996-cı il tarixli Nüvə Silahlarının İstifadəsinə dair Məsləhət Rəyində sonuncuların yanaşmasını izləmiş və müvaiq maddələrin sadəcə iştirakçı dövlətlər üçün məcburi olduğunu bildirmişdir.[28] Lakin beynəlxalq adət hüququnun prinsiplərini və ətraf mühitin mühafizəsinin vacibiliyi nəzərə alındıqda bu yanaşmanın uğurlu olmadığını düşünürük.

Cenevrə Konvensiyasının Qeyri-beynəlxalq xaraqterli silahlı münaqişə qurbanlarının müdafiəsinə dair II saylı Protokolunun mənti hazırlanarkən ətraf mühitin qorunmasına dair oxşar müddəaların buraya daxil edilməsi gündəmə gətirilsə də, yekun mətndə bundan

---

[24] Ahmet Hamdi TOPAL, "Silahlı Çatışmalarda Doğal Çevrenin Korunması", s 219. https://dergipark.org.tr/tr/download/article-file/99318

[25] Commentaire des Protocoles additionnels du 8 juin 1977 aux Conventions de Geneve du 12 aout 1949 (ed. Yves Sandoz, Christophe Swinarski, Bruno Zimmermann), CICR, Martinus Nijhoff Publishers, Geneve, 1986, p. 417, par. 1450-1451 et p. 419, par. 1454.

[26] Daniel Bodansky, Effects of Military Activity on the Environment, Final Report, (Erste Auflage. Berlin: Erich Schmidt Verlag, Mayıs 2003), s. 15.

[27] Antonio Cassese, International Law, Second Edition, Oxford: Oxford University Press, 2005, pp. 419–420'den nakleden Marco ROSCINI, "Protection of Natural Environment in Time of Armed Conflict", http://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id= 1351888

[28] Legality of the Threat or Use of Nuclear Weapons, Advisory Opinion, I.C.J. Reports 1996, p. 31.

imtina edilmişdir. Buna görə də hazırda qeyri-beynəlxalq silahlı münaqişələr zamanı ətraf mühitin qorunmasını birbaşa tənzimləyən normalar yoxdur.

### B. Dolayı tənzimləmə

#### a. I saylı əlavə Protokol

I saylı əlavə Protokolda birbaşa tənzimləmələrlə yanaşı, dolayı tənzimləmələr də nəzərdə tutulub. Bu tənzimləmələrdə əsas məqsəd ətraf mühitin mühafizəsi olmasa da, müəyyən edilən qaydalar bu və ya digər şəkildə ətraf mühitin mühafizəsinə də xidmət edir. Bu müddəalara aşağıdakıları aid edə bilərik:

- 51-ci maddənin 4-cü və 5-ci bəndləri seçimsiz zorakılığın qadağan edilməsindən bəhs edir. 4 (c) bəndində nəzərdə tutulmuşdur ki, təsirləri bu Protokolda nəzərdə tutulduğu kimi məhdudlaşdırıla bilməyən mübarizə üsulları və ya vasitələrindən istifadə qadağandır. 5(a) bəndi isə aydın məsafəli və fərqli hərbi məqsədləri olan ərazilərin bombalanmasını qadağan edir.
- Mülki obyektlərin ümumi mühafizəsinə dair 52-ci maddənin 1-ci və 2-ci bəndləri hücumların hərbi məqsədlərlə məhdudlaşdırılmalı olduğunu və mülki obyektlərin hücum obyekti ola bilməyəcəyini xatırladır.
- 54-cü maddənin 2-ci bəndi isə öz növbəsində ərzaq məhsulları və kənd təsərrüfatı sahələri, əkinlər, mal-qara, içməli su və bu kimi mülki əhalinin yaşaması üçün zəruri olan obyektləri mühafizə edir.
- 56-cı maddə bəndlər, su kanalları və nüvə elektrik stansiyaları kimi təhlükəli obyeklərin heç bir halda hücum obyekti ola bilməyəcəyini vurğulayır.[29]

#### b. II saylı əlavə Protokol

Yuxarıda da bildirdiyimiz kimi II saylı protokol hazırlanarkən ətraf mühitin birbaşa müdafiəsinə dair tənzimləmələr edilməyə çalışılsa da, sonradan bundan imtina edilmişdir. Buna baxmayaraq, Protokolda dolayı tənzimləmələr vardır. Məsələn, 14-cü maddədə mülki əhalinin yaşaması üçün zəruri olan elementlərin mühafizəsi nəzərdə tutulur. 15-ci maddədə isə bəndlər, su kanalları və atom elektrik stansiyaları kimi təhlükəli obyektlərə hücum qadağan edilmişdir.

#### c. Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya və onun 3 əlavə protokolu

---

[29] Yuxarıda 2, 548

I və II saylı Protokollarda qoyulan qaydaların hansı silahları tam olaraq əhatə etdiyi göstərilmir. Bu isə Protokolların tətbiqində müəyyən problemlərə səbə olurdu. Bu problemləri həll etmək məqsədilə 1980-ci il tarixində Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında Konvensiya və onun 3 əlavə protokolu qəbul olundu.

Maraqlıdır ki, Konvensiyanın Preambulasında I saylı protokolun 35 (3)-cü maddəsi olduğu kimi əks etdirilmiş və ətraf mühitə geniş, uzunmüddətli və ciddi ziyan vurmaq məqsədi daşıyan döyüş üsul və ya vasitələrindən istifadənin qadağan olması xatırlanmışdır.

Konvensiyanın "Aşkar edilməyən qəlpələr haqqında" I saylı Protokolunda ətraf mühitlə bağlı məqamlara rast gəlinmir. "Minaların, mina-tələlərin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" II saylı Protokolda isə mövzu ilə bağlı bəzi məsələlərə diqqət yetirilməlidir. Bu növ silah və qurğuların birbaşa olaraq ətraf mühitə geniş, davamlı və ciddi zərər vurmaq ehtimalı yoxdur, lakin buna baxmayaraq, onlar ətraf mühitə müxtəlif yollarla zərər verə bilərlər. Məsələn, bu növ qurğuların tətbiqi kənd təsərrüfatına, yollara və landşafta ciddi şəkildə zərər vura bilər. Həmçinin bu qurğular müharibə tullantılarının da əsas hissəsini təşkil edir. Bu baxımdan həmin qurğuların istifadəsinə qadağa və məhdudiyyətlərin qoyulması əhəmiyyət kəsb edir.

"Yandırıcı silahların tətbiqinə qoyulan qadağalar və məhdudiyyətlər haqqında" III saylı Protokolun ekoloji hücumların qarşısının alınmasında mühüm rola malik olduğunu söyləmək olar. Yandırıcı silahların fauna və floraya, habelə kənd təsərrüfatına vurduğu ciddi ziyanlar nəzərə alındıqda, ətraf mühitin qorunmasıda III saylı Protokolun güclü tənzimləmə olduğunu deyə bilərik.

**Nəticə**

Göründüyü kimi, ətraf mühitə vurulan ziyanların artması, ekoloji problemlərin vüsət alması ətraf mühitin qorunması məsələsini müasir dövrün ən əhəmiyyətli məsələlərdən birinə çevirmişdir. Ekoloji problemlərin müxtəlif insan fəaliyyətlərinin nəticəsi olduğu aydındır. Lakin bu fəaliyyətlər arasında silahlı münaqişələrin böyük rolu olduğunu müəyyən etdik.

Bununla belə beynəlxalq humanitar hüquq silahlı münaqişələrin ətraf mühitə getdikcə artan dağıdıcı təsirinin qarşısını hələ də ala bilməyib. Əvvəla, silahlı münaqişələrdə ətraf mühitin mühafizəsi ilə bağlı beynəlxalq hüquqi qaydalar mütəmadi olaraq formalaşmamış və ayrı-ayrı hadisələr qarşısında yaranan ehtiyaclar çərçivəsində formalaşmışdır. Hər biri ayrı-ayrı məqsədlər üçün yazılan və tətbiq edilən bu qaydalar arasında ortaq tənzimləmənin olmadığını müəyyən etdik.

Digər tərəfdən beynəlxalq humanitar hüquqda hələ də insan əsaslı yanaşmanın (antropocentric perspective) üstünlük təşkil etdiyini, ətraf mühitin əsas müdafiə obyektinə tam şəkildə çevrilmədiyi nəticəsinə gəldik.

Ətraf mühitə qarşı vurulan qeyri-legitim zərərləri müəyyən etmək üçün olduqca yüksək tələblərin müəyyən edilməsi, qeyri-beynəlxalq silahlı münaqişələr zamanı ətraf mühitə vurulan ziyanların qarşısını alacaq konkret tənzimləmənin olmaması və əsas hüquqi tənzimləmələrin yalnız müvafiq aktların üzvləri üçün məcburi xarakter daşıması bu sahədəki əsas problemləri təşkil edir. Bununla yanaşı mövcud hüquqi tənzimləmərin effektiv müdafiə vasitələrinin də kifayət qədər olmaması bu sahədə digər əlaqəli problemlərin  yaranmasına gətirib çıxarır.

Yekun olaraq düşünürük ki, bu sahədəki pərakəndəliyi aradan qaldırmaq, effektiv hüquqi tənzimləmə və müdafiə vasitələrinin formalaşdırlması üçün silahlı münaqişələr zamanı ətraf mühitin qorunmasına dair xüsusi hüquqi akt qəbul edilməli və müntəzəm olaraq əsas müddəaları beynəlxalq adət normalarına çevrilməlidir. Yalnız bu yolla ətraf mühitin effektiv qorunmasına nail olmaq mümkün olar.